# İLK ĞURBƏT

## Həmid Nitqi

İlk səfərin xatirəsi
ilk eşq kimi
dərin olar

İnsan təkrar
anımsarkən
onu daha dadlı bular

Gözünün önündə canlanar
dəsmalların
həzin-həzin tərpənməsi
dostlarının göz-yaşları
ilk ayrılıq anlarının xəbərçisi:
trən səsi...

Yelkân kimi
açılarsan ənginlere
göyə boy-atmış dağlara
ucsuz-bucaqsız çöllərə
ve nəhayət yetişərsən
bilmədiğin
görmədiğin
bir şəhərə...

Ürəğinə
axşam kimi
gurbət çökər
görsənməzlər tanış üzlər
silinmişdir hamı izlər...

Bir hoteldə gecələrsən
yorgun arğın
bir yuxunun

unudğanlıq dəryasında
üzərsən...

Sora
serin bir səhərdə oyanıb
yep-yeni bir gün doğduğun görərsən.

Galxıb şəhri gəzərsən
küçələrlə
evlərlə

tanışırsan
yavaş-yavaş çevrəyə alışırsan
şəhərlə barışırsan

Bir gün gələr
o yərə
duyğuların bağıyla
ürəkdən bağlanırsan
unudursan ilk günlərin
kədərin

Hətta,
bir gün gayıdırkən yuvana
dərindən
bir ağrı
duyarsan tâ içindən...

Zaman keçər illər köçər
dərinliğində qəlbinin
ilk səfərin
izi qalar

Xâtirələr ölməz
yaşar.